MÜXTƏLİF

# Kompüterin uşaq psixologiyasına, mənəvi inkişafına müsbət və mənfi təsirləri

**MÜASİR zamanda insan həyatının vacib bir parçasına çevrilən kompüter demək olar ki, bütün evlərdə mövcuddur. Əksərən kompüter istifadəsinin uşaqlara zərərləri olduğu deyilir. Amma mütəxəssislər düzgün istifadə olunduqda kompüterin həm uşaqların, həm də gənclərin inkişafına və dərs qavrama bacarığına müsbət təsiri olduğunu bildirirlər. Məsələn. Bunları aşağıdakı kimi sıralaya bilərik:**

## "DÜZGÜN İSTİFADƏ OLUNDUQDA KOMPÜTER HƏM UŞAQLARIN, HƏM DƏ GƏNCLƏRİN İNKİŞAFINA VƏ DƏRS QAVRAMA BACARIĞINA MÜSBƏT TƏSİR EDİR"

## "KOMPÜTERDƏN İSTİFADƏ MÜƏYYƏN BİR HƏDDİ KEÇDİKDƏ, MƏNFİ TƏSİRLƏRİ QAÇILMAZ OLUR"

Uşağın rəqabət və maraq duyğusunu artırır;

İstifadəsinin asan olması səbəbi ilə kiçik uşaqlar üçün öyrənməni əyləncəli hala gətirə bilir;

Uşağın diqqətini toplamağı öyrənməsinə kömək edir;

Məktəbə hazırlıq zamanı yaşa uyğun kompüter proqramlarının, xüsusilə də əl göz koordinasiyasını inkişaf etdirməsi səbəbindən faydalı olduğunu mütəxəssislər də təsdiqləyir.

### "Kompüter dəstəkli təhsil"

Uyğun miqdarda istifadə olunduqda yazı, oxuma və əlaqə qurma bacarıqlarını inkişaf etdirir;

Uşağın yazmazdan qabaq fikrini cəmləməsi lazımdır. Necə yazacağını düşünərək, oxuyaraq daha dərin öyrənməsini təmin edir; Uşağın diqqətini çəkdiyi müddət ərzində, kompüter müəllim vəzifəsini yerinə yetirir;

"Kompüter dəstəkli təhsil" yolu ilə şagirdin öyrəndiyi məsələ ilə bağlı dəyərləndirməni öz-özünə yerinə yetirməsini təmin edir, beləliklə uşağa bilik yönünü müəyyən etmə fürsəti verir. Uşağın aktiv iştirakı ilə həyata keçirilən bu prosesdə kompüter mütəmadi təkrara əlverişli olduğu üçün

öyrəndiklərini bir daha gözdən keçirə bilir;

Bütün bunlar, inkişaf mərhələsinə uyğun müddətdə, faydalı istifadə olunduğu təqdirdə, kompüterin uşaqların inkişafına və təhsilinə müsbət dəyər qatdığını müşahidə etmək olar.

Ancaq bu müsbət yönləri ilə yanaşı, kompüterin istifadəsi müəyyən bir həddi keçdikdə, mənfi təsirləri də qaçılmaz olur.

### Şagird intellektual oyunlar oynayır, elektron kitablar yükləyir...

Təhsil üzrə ekspert Kamran Əsədov bildirir ki, ətrafımızdakı insanların əksəriyyəti kompüter və internetdən istifadə edir: "Uşaqlara gəldikdə isə hesab edirəm ki, kompüterin ən çox istifadəçiləri məhz onlardır. Bu gün hər kəsin evində demək olar ki, həm kompüter, həm də televizor var. Bu cihazların istifadəsi isə birmənalı deyil. Şagirdlərlə işlədiyim üçün bütün bunların onlarda müsbət və mənfi təsirini açıq şəkildə müşahidə edirəm. Lakin keçid dövründə olan şagirdlərə bu vasitələrin xeyrindən çox mənfi təsiri olduğu daha çox nəzərə çarpır. Bu, hər birimizi narahat edən məsələlərdəndir".

Qloballaşan dünyada şagirdləri ətraf mühitdən təcrid etmək, onların dünyagörüşünün inkişafına mane olmaq da düzgün hal hesab edilmir söyləyən Kamran Əsədov düşünür ki, ancaq ağıllı və düzgün yönəldilən şagird istər internetin, istərsə də televiziyanın müsbət tərəflərindən istifadə edir. Özünə lazım olan istənilən materialı internetdə tapır, elektron kitablar yükləyir, intellektual, tarixi verilişlərlə öz biliklərini daha da genişləndirir. Bunun üçün, ilk növbədə,



şagirdlər arasında maarifləndirmə işləri aparmaq lazımdır. Axı bütün uşaqlar internet və televiziyanın məhz yaxşı tərəfindən istifadə etmir".

### Hətta bağçaya gedən 3-5 yaşlı uşaq da internetdən istifadə edir

"İnternetdən istifadənin yaş həddi bu gün çox "cavanlaşıb" desək yanılmarıq. Bir çox ailələrdə, hətta bağçaya gedən 3-5 yaşlı uşaq da internetdən istifadə edir, orada xoşuna gələn oyunları oynayır. Amma onların öz yaşlarına uyğun olmayan şəkillər, filmlər görməsi psixologiyalarına ciddi təsir göstərir və onlar vaxtından tez lazım olmayan informasiya ilə yüklənirlər"-deyə vurğulayan ekspert hesab edir ki, bu gün internetin şagirdlərin həyatına ən mənfi təsiri erkən yaşdan lazım olduğundan artıq və lazımsız informasiyaları almasıdır. Girişinə qadağa qoyulmayan bir çox saytlar, müxtəlif açıq-saçıq forumlar şagirdlərin tərbiyəsinə mənfi təsir göstərir. Bütün bunlarda İnternetin rolu danılmazdır. Belə ki, uşaqlar bilmədiyi məlumatları da internet vasitəsilə əldə edir. Belə sürətli inkişaf əqidəsi zəif olan uşaqların nəinki dərsə marağını azaldır, hətta onların tamamilə təhsildən uzaqlaşmasına belə yol açır. Onlar daha çox əyləncə axtarırlar".

Kamran Əsədov qeyd edir ki, bu səbəbdən müəllimlərin də işi çətinləşir: "Şagirdləri daim nəzarətdə saxlamaq, sözsüz ki, mümkünsüz bir işdir. Ona görə də bu işdə təkcə müəllimlər deyil, bütövlükdə cəmiyyət əl-ələ verib çalışmalıdır. İnternet klubların fəaliyyətinə nəzarət güclənməlidir. Valideynin qida almaq üçün verdiyi pullarla evdə girə bilmədiyi saytlara internet klublar vasitəsilə daxil olan uşaqlara diqqət artırılmalıdır. Bu işdə valideynlərin də üzərinə məsuliyyət düşür. Evdə uşaqlara ciddi şəkildə nəzarət etmədikləri təqdirdə ağır fəsadlarını görməkdən qaçına bilməyəcəklər"

### Uşaqların kompüterdən nəzarətsiz istifadəsinin fəsadları

Psixoloqlar da kompüterin yeniyetmələrlə bərabər uşaqlar üzərində də təsirli, özünə bağlayıcı rolu olduğunun danılmaz həqiqət olduğunu bildirirlər. Çox zaman uşaqların kompüter qarşısında sehrlənmiş kimi saatlarla oturduqlarının fərqinə varırıq. Aclıq belə hiss etmədən saatlarla qala bilirlər, çağırdıqda eşitmirlər. Bu gücün təsirini tam olaraq bilmədiyimiz üçün, bu müddətdə uşağa göz qoymaq, müşahidə etmək və nəzarət etmək vacibdir. Kompüterə yazılmış proqram uşağınızın yaşına uyğun deyilsə, uşaqların məyusluğuna səbəb ola bilər. Kompüterdə yaşına uyğun olmayan proqramlardan istifadə uşaqlarda: şiddət istifadəsi, kobud ifadələrlə danışma, izlədiyi animasiyalar səbəbi ilə həddindən artıq hərəkətlilik, gördüklərinin eynisini təkrar etmə kimi təsirlər yarada bilir.

Bəs kompüter və internetin uşaqların xasiyyət və şəxsiyyətinin formalaşmasında təsirləri nələrdir?

Valideynlər uşaqların kompüter və internetdən istifadəsini nəzarətsiz qoyduqda nələr ola bilər?

Danışmağa başlama yaşını gecikdirə bilər. Sosial əlaqə qurma bacarığını zəiflədər, qidalanmasında pozulmalar ola, yaxud yeməyini kompüterdə oyun oynaya-oynaya davam etdirmək istəyə bilər.

Baxışları ilə duyğularını ifadə edə bilmir, anlama bacarığı aşağı düşür, ifadələrini bəlli edə bilmir.

Reaksiyaları getdikcə azalır, çağırdıqda sizi eşitmir, ifadə bacarıqları zəifləyir.

Vaxtını keçirmək üçün kompüter alüdəçisinə çevrilir. Fiziki oyunlar oynama bacarıqlarını yadırğayır.

### Həddindən çox istifadə: göz problemləri, duruş və onurğa deformasiyasına yol açır...

Kompüterdən həddindən artıq istifadə uşaqların xəyal qurma bacarığını və yaradıcılığına mənfi təsir edir. Qorxu və qayğı hissləri artır və bu hissləri aradan qaldıra bilmədiyi üçün çətinlik çəkir. Oyun qurma və oyun oynama bacarığı azalır, "küçə oyunları" dediyimiz oyunlardan xəbərsiz böyüyür, ya da bu oyunlar ona mənasız gəlir. Daha ağır, hərəkətsiz bir uşaq olaraq böyüyür və fiziki hərəkətlilik, yorğunluq gətirəcək oyunlara daxil olmaq istəmir.

Yuxu saatları pozulur, həmçinin uzun müddətli kompüter istifadəsi uşaqlarda fiziki problemlərə yol açır. Məsələn, bu problemlərin başında göz problemləri, radiasiyanın zərərləri, onurğa sütununda deformasiyalar gəlir. Çox yeməyə başlayır. Demək olar ki, reklamlarını izlədiyi hər məhsulu tələb edir və aldırana qədər ağlayır.

Şəxsi zövqü, maraqlandığı bir hobbisi olmadan böyüyür, ya da oynadığı oyunlardakı, izlədiyi filmlərdəki hadisələri mənimsəyir. Şiddətdən təsirlənir və özləri də bunu həyata keçirirlər.

Kompüter oyunlarda uduzduqca, bir sonrakı mərhələyə keçə bilmədikcə hirslənir, həssaslaşır, qazana bilmirəm deyə ağlamağa başlayır, qarşısındakını günahlandırmağı öyrənir (kompüteri), özünü bacarıqsız kimi görməyə başlayır. Yaşından daha kiçik bir uşaq kimi danışmağa və davranmağa başlayır. Oxuma səviyyəsi aşağı düşür, sürəti yavaşıyır.

Yaza bilmə qabiliyyəti tədricən itir, laqeydləşir, kompüterdə yazmaq daha sürətlidir deyə düşünür. Psixoloji və sosial bacarıqları azalır.

Gördüyü, izlədiyi hər şeyi həqiqi olaraq anlayır və həyatda tətbiq edir.

Ailəsi ya da dostları ilə vaxt keçirmək yerinə texnoloji alətlərlə vaxt keçirməyi seçirlər, ümumi söhbət mövzuları da kompüter oyunları və mobil telefonları olur. Kompüterdə yaşına uyğun proqram izləməyəndə və zamanının çoxunu onun qarşısında keçirəndə uşaqda yaddaş zəifləyər, məktəbdə arxa-arxaya deyilən 2-3 kəlməni belə yadda saxlamaqda çətinlik çəkir.

Göründüyü kimi, müasir zamanın tələbi olaraq uşaqların kompüterdən istifadəsi labüddür. Valideynlərin nəzarəti ilə yaşına uyğun proqramlardan istifadə edərək onlar dünyagörüşlərini artıra, intellektual biliklərini zənginləşdirə, hansısa bir məsələ ilə bağlı araşdırmalar apara bilərlər. Amma kompüterdən uzunmüddətli istifadə yuxarıda sadalanan mənfi təsirlərə rəvac verə, onların fiziki və psixoloji sağlamlıqlarına sağalmaz izlər vura bilər. Buna görə də lazımdır ki, valideynlər və müəllimlər bu məsələ ilə bağlı uşaqlar üzərində ciddi nəzarət aparsınlar.

***Könül***